

PIARC

120-dən çox ölkə

20-dən çox texniki komitə

1200-dən çox ekspert

1909-cu ildən etibarən

# AVTOMOBIL YOLLARI VƏ AVTO-MOBIL NƏQLIYYATI SAHƏSINDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

# MÖVZULARIMIZ

## YOL TƏSƏRRÜFATI VƏ AVTOMOBIL NƏQLIYYATI ILƏ BAĞLI OLAN BÜTÜN MÖVZULAR

- YOL HƏRƏKƏTININ TƏHLÜKƏSIZLIYI
- YOLLARDAN ISTIFADƏNIN YENI NÖVLƏRI
- NƏQLIYYAT SIYASƏTI
- MALIYYƏLƏŞDIRMƏ
- NƏQLIYYATIN TƏHLÜKƏSIZLIYI
- NƏQLIYYAT ORQANLARININ IŞI
- SƏKILƏR
- TUNELLƏRIN ISTISMARI
- ƏTRAF MÜHIT
- QOŞULMUŞ NƏQLIYYAT VASITƏLƏRI
- SAXLANMA VƏ ISTISMAR STRATEGIYALARI
- YOL ŞƏBƏKƏLƏRININ ISTISMARI
- DAVAMLILIQ
- YÜK DAŞIMALARI
- TƏBII FƏLAKƏTLƏRIN NƏTICƏLƏRININ QARŞISININ ALINMASI VƏ ARADAN QALDIRILMASI
- QIŞ MÖVSÜMÜNDƏ XIDMƏT
- KÖRPÜLƏR
- İNTELLEKTUAL NƏQLIYYAT SISTEMLƏRI
- KƏND YERLƏRINDƏ YOLLAR
- TORPAQ IŞLƏRI
- MULTIMODALLIQ
- YOL AKTIVLƏRININ IDARƏ EDILMƏSI
- ŞƏHƏR RAYONLARINDA MOBILLIK
- ...










**Yol nəqliyyatı** nəqliyyatın ən qədim növüdür və hələ də əksər ölkələrdə daşımaların 80%-dən çox hissəsini təşkil edir. Nəqliyyata olan tələbat, yeni tendensiyalar, ictimai təzyiq və vəsaitlərin istifadəsinin effektivliyi baxımından yol nəqliyyatı getdikcə daha sərt tələblərlə üzləşir.

Bütün dünyada ekspertlər, tədqiqatçılar və təcrübəçilər ən uyğun cavab tədbirlərinin hazırlanması və həyata keçirilməsi məqsədi ilə bu suallar üzərində işləyirlər.

**Beynəlxalq əməkdaşlıq** bu prosesdə güclü bir vasitədir.

- **Qabaqcıl təcrübələrin yenidən ixtira edilməsi əvəzinə, onlar mütəxəssislər arasında görüşlər və əməkdaşlıq vasitəsilə yayılırlar ki, bu da vaxta və pula qənaət etməyə imkan verir.**
- **İdeyalar da mübahisələndirilə bilər ki, bu da yeni konsepsiyaların meydana çıxmasına kömək edir.**
- **Bu cür əməkdaşlıq iştirakçıların milli təcrübələri təşviq etmələrinə imkan yaradır.**

**PIARC, Ümumdünya Yol Assosiasiyası** yollarla bağlı olan bütün məsələlər üzrə əməkdaşlığın bu növünə yardım etmək üçün **1909**-cu ildə yaradılmışdır. Beynəlxalq assosiasiyamız **qeyri-siyasi və qeyri-kommersiya** təşkilatıdır. Bu təşkilat dünyanın hər yerindən olan yol ekspertlərinin şəbəkəsini formalaşdırır, həmin ekspertlərə birgə iş metodlarını təqdim edir, onların tövsiyə və hesabatlarını dərc edir. Bütün bunlar inteqrasiya olunmuş və davamlı nəqliyyat kontekstində baş verir.

Məhsul və xidmətlərimiz geniş həcmdə əlçatandır və 120-dən çox ölkənin hökumətlərini ehtiva edən üzvlüyümüzlə ifadə olunmuş gözləntilərə və tələblərə istiqamətlənmişdir.

# VƏZIFƏLƏRIMIZ

## AVTOMOBİL YOLLARI VƏ AVTOMOBİL NƏQLİYYATI İLƏ BAĞLI MƏSƏLƏLƏRİN TƏHLİLİ VƏ MÜZAKİRƏSİ ÜÇÜN MÜASİR BEYNƏLXALQ FORUMUN TƏMİN EDİLMƏSİ

- 1908-ci ildən etibarən hər dörd ildən bir keçirilən Ümumdünya Yol Konqresi
  – bu konqreslərin sonuncusu 2019-cu ildə Əbu-Dabi şəhərində (Birləşmiş Ərəb Əmirlikləri) keçirilmişdir;
  – növbəti konqres 2023-cü ildə Praqa şəhərində (Çex Respublikası) keçiriləcəkdir.
- Beynəlxalq Qış Yol Konqresi
  – sonuncusu 2018-ci ildə Qdansk şəhərində (Polşa) keçirilmişdir;
  – növbəti konqres 2022-ci ildə Kalqari şəhərində (Kanada) keçiriləcəkdir.
- 1200 beynəlxalq ekspert
- 20-dən çox texniki komitənin və hədəf qruplarının işində iştirak.
- İcraiyyə Komitəmizin və Şuramızın Nizamnamə iclasları
- Milli səviyyədə müşavirələr (milli komitələr)

XXVII[TH] WORLD ROAD CONGRESS PRAGUE 2023

CALGARY 2022 CANADA

## QABAQCIL TƏCRÜBƏ MÜBADİLƏSİ VƏ QLOBAL İNFORMASİYAYA OPTİMAL ÇIXIŞIN TƏMİN EDİLMƏSİ

- Ödənişsiz əsasda əlçatan olan hesabatların dərc edilməsi (ayda 1 hesabat)
- Hər rübdə bir dəfə üç dildə nəşr olunan *“Routes/Roads”* jurnalı
- *“Tunellər”* və *“Örtüklərin xüsusiyyətləri”* mövzularında konfranslar
- Qısa xülasələr (xüsusi layihələr)






## İNKİŞAF ETMƏKDƏ OLAN VƏ KEÇİD İQTİSADİYYATINA MALİK OLAN ÖLKƏLƏRİN MARAQLARINA UYĞUN TƏDBİRLƏRİN GÖRÜLMƏSİ

- İş mövzularımıza daxil olan tələblər
- Beynəlxalq seminarlar – altı həftədə bir dəfə
- Regional işçi qrupları
- Maliyyə dəstəyi mexanizmləri



## AVTOMOBİL YOLLARI VƏ AVTOMOBİL NƏQLİYYATI İLƏ BAĞLI MƏSƏLƏLƏR ÜZRƏ QƏRARLARIN QƏBUL EDİLMƏSİNƏ KÖMƏK ETMƏK ÜÇÜN SƏMƏRƏLİ VASİTƏLƏRİN İŞLƏNİB HAZIRLANMASI VƏ ONLARIN İSTİFADƏSİNƏ YARDIM EDİLMƏSİ

- Qabaqcıl çoxdilli onlayn yol lüğətimiz
- HDM-4: yolların saxlanma siyasəti və investisiyaların təhlili üçün proqram təminatı
- DG-QRAM: tunellərdə təhlükəli yüklərin daşınmasının idarə edilməsi üçün alət.
- Tematik onlayn-təlimatlar: yol hərəkətinin təhlükəsizliyi, tunellərdə iş, yol aktivlərinin idarə edilməsi, şəbəkənin işi/intellektual daşınmalar

# BIZ NECƏ IŞLƏYIRIK?




**Texniki komitələr** və hədəf qrupları PIARC-ın ən nəzərəçarpan elementləridir.

Onlar dünyanın hər yerindən 1200-dən çox mütəxəssisi birləşdirirlər ki, bu da PIARC-ı **yol təsərrüfatı üzrə mütəxəssislərin dünyada ən böyük şəbəkəsinə çevirir**. Onların işi aşağı və ya orta gəlir səviyyəsinə malik olan ölkələrdə hər il keçirilən iki görüş və seminar ətrafında dövr edir və prioritet təşkil edən texniki mövzular üzrə məruzələrin dərc edilməsi ilə nəticələnir.

Məhsullarımızın əsas hissəsi PIARC-ın üç işçi dili olan ingilis, fransız və ispan dillərində, bəzən isə digər dillərdə əlçatandır.

# TƏRƏFDAŞLIQ MÜNASIBƏTLƏRI

**PIARC** nəqliyyat sisteminin əsas komponenti qismində yolların mövqelərinin təyin edilməsi, məhsullarımızın geniş yayılmasının təmin edilməsi, qabaqcıl təcrübə mübadiləsinə yardım edilməsi, yol cəmiyyətlərinə daha geniş çıxış imkanının bizə təqdim edilməsi, tədbirlər planının əlaqələndirilməsi və birgə layihələrin işlənib hazırlanması məqsədi ilə tərəfdaşlıq münasibətlərini fəal şəkildə inkişaf etdirir.

**PIARC-ın milli komitələri:** 40-dan çox ölkədə milli səviyyədə yaradılmış milli yol assosiasiyaları.

**Regional yol assosiasiyaları:** Avropada CEDR, fransız dilli Afrikada AGEPAR, Asiyada REAAA və Latın Amerikasında DIRCAIBEA.

**İnkişaf təşkilatları**, o cümlədən Dünya Bankı, Asiya İnkişaf Bankı, Latın Amerikası İnkişaf Bankı və s.

**Beynəlxalq texniki təşkilatlar:** TRB (ABŞ), Tunellərin inşası və yeraltı məkan üzrə beynəlxalq assosiasiya (İTA-AYTES), FİSİTA və başqaları.

# NƏ ÜÇÜN PIARC-A QOŞULMAQ LAZIMDIR?

## İŞTIRAK ETMƏK

- Tədbirlərimizdə
- Yol mövzusu ilə bağlı məsələlər üzrə beynəlxalq səviyyəli əməkdaşlıqda
- Texniki komitələrdə və hədəf qruplarında
- Yollarla bağlı problemin aşkara çıxarılmasında

## ÇIXIŞ IMKANI

- “Routes/Roads” jurnalımız
- Onlayn hesabat kitabxanamız
- Onlayn yol lüğətimiz
- Proqram məhsullarımız

**Biz üzvlüyün bir neçə kateqoriyasını təklif edirik: ölkə hökumətləri; regional hakimiyyət orqanları; şirkətlər və ya universitetlər; fərdi üzvlər.**

# PIARC KOMANDASI

### Şura

**Assosiasiyanın idarə edilməsinə görə məsuliyyət**

Onun tərkibinə üzv dövlətlərin nümayəndə heyətləri daxildir, hər bir nümayəndə heyətinə birinci nümayəndə başçılıq edir

### Prezident

**Şura tərəfindən seçilir**

4 il müddətinə

### İcraiyyə komitəsi

**Assosiasiyanı idarə edir**

Bir neçə komissiyanın dəstəyi ilə

### PIARC-ın Baş katibliyi

**Bütün fəaliyyəti əlaqələndirir**

Fransada, Paris şəhərində yerləşir

Bəzi üzv ölkələr tərəfindən təqdim edilmiş liderlər və ekspertlər

İşçilər

# www.piarc.org

- Nəşrlərimizi yükləmək

- Sosial şəbəkələrdə bizə qoşulun

- Elektron informasiya jurnalımıza abunə olun

PIARC